# Tarix dərslərində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması

**Aysun Əlövsət qızı Əhmədzadə**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** aysunehmedova98@gmail.com

**Rəyçilər:** t.ü.f.d, dos. S.X. Məmmədova,
p.ü.f.d. D.M. Musayev

**Açar sözlər:** siyasi mədəniyyət, ictimai şüur, mənəvi tərbiyə, parlamentli respublika, prezidentli respublika

**Ключевые слова:** политическая культура, общественное сознание, нравственное воспитание, парламентская республика, президентская республика

**Key words:** political culture, public consciousness, moral education, parliamentary republic, presidential republic

Cəmiyyət müxtəlif rənglərdən – düşüncələr, fikirlər, mövqelər, yanaşmalardan ibarətdir. Amma bunların hər birini bir araya gətirmək üçün mütləq siyasi mədəniyyət formalaşdırılmalıdır (5).

Məktəbdə siyasi mədəniyyətin yaradılması pedaqogikanın ən vacib problemlərindəndir. Müasir şərait məktəblilər və gənclər arasında siyasi mədəniyyətə malik olmaq üçün həm obyektiv, həm də subyektiv şərait yaratmışdır. Siyasi mədəniyyət – siyasi fəaliyyətlərdə, siyasi hadisələrin qiymətləndirilməsində və siyasətlə əlaqəli olaraq ifadə olunan tarixən formalaşmış sabit dəyərlər, münasibətlər, inanclar, fikirlər, davranış modelləri sistemidir (1, s. 138).

Ümumtəhsil məktəblərində tarix dərslərində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması müasir təhsil siyasətinin bir hissəsi hesab oluna bilər. Bununla yanaşı, müəllimlərin interaktiv təlim metodlarından istifadə etməklə təhsilalanların siyasi mədəniyyətini formalaşdırması zəruridir. Azərbaycan tarixi dərslərində hələ V sinifdə mövzuları tədris edilən zamandan etibarən dövlətimizin rəmzlərindən istifadə olunmasının xüsusi önəmi vardır. Bunun üçün ilk növbədə dövlətimizin rəmzləri ilə bağlı informasiyalar təhsilverənin izahına daxil edilməlidir.

İkinci addım kimi şagirdlərə bununla əlaqədar əlavə ədəbiyyat məsləhət görülməli və onunla işləməyin yolları izah edilməlidir. Şagirdlərə bayrağımız, himnimiz, gerbimizin yaranması, məna və funksiyaları haqqında referatlar hazırlamaları da tapşırıla bilər. Həmçinin şagirdləri bu rəmzlərə hörmət, onları uca tutmaq ruhunda tərbiyə etmək biz müəllimlərin borcudur.

Məktəb mühitində təhsilalanlarda siyasi mədəniyyətinin yaradılması üçün materialın qavranılmalı, dərk edilməli, yaddaşa həkk olunmalı və nəhayət, praktikada istifadə edilməlidir. Şagirdlər səbəb-nəticə əlaqələrinin fərqinə varmalıdırlar.

Tarix dərslərində şagirdlərdə siyasi mədəniyyəti formalaşdırmaq işinin əsas mərhələləri:

1. Şagirdlərin yeni informasiyanı qavramasına şərait yaratmaq; 2. Yeni tarixi faktları hazırlamaq; 3. Dərketmə prosesi; 4. Lazımi prosesləri, anlayış, terminləri möhkəmlətmək; 5. Şagirdlərdə dərslik, illustrativ vasitələr, sənədlərlə işləmək qabiliyyəti formalaşdırmaq; 6. Mənimsənilən məlumatları praktikada istifadə etməyi öyrətmək və s. (2, s. 575-576).

Bir neçə il bundan əvvələ kimi məktəblərdə insan və cəmiyyət fənni də tədris edilirdi. Məhz tarix fənni ilə yanaşı bu fənnin tədrisi zamanı da şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması mümkün idi. Lakin artıq bu fənn məktəblərdə olmadığı üçün tarix fənninin üzərinə bu mənada daha çox yük düşür. Tarix fənni həm ötən dövrü, həm də müasir dövrü əks etdirdiyi üçün bizə siyasi mədəniyyəti formalaşdırmağa və inkişaf etdirməyə yardım edir. Möv-

zuların içərisində xüsusən dövlətin yaranması, dövlətin idarə edilməsi, dövlətlərarası münasibətlər, hakimiyyət uğrunda mübarizə və s siyasi mədəniyyət motivləri ilə daha zəngindir.

Nəzərə almaq lazımdır ki, bütün tarix dərsliklərində siyasi mədəniyyət mövzusuna geniş və ya dar çərçivədə yer verilmişdir. Bunu şagirdlərin nəzərinə çatdırmaq və onlara istiqamət vermək isə müəllimin fəaliyyəti ilə bağlıdır. Məhz bu mənada müəllimin şərhi çox vacibdir. Müəllimin nitqi qüsursuz olmalıdır və o, dərsə hazırlaşarkən müxtəlif mənbələrdən istifadə etməlidir.

İctimai şüurun formalaşmasında əsas mətnlə yanaşı sənədli materiallardan istifadə olunması da motiv yaradır. Çünki sənədlər güclü təsirə malik olub, siyasi, əxlaqi, estetik şüuru formalaşdırır. VI-IX siniflərin tarix kursları üzrə dərslərdə şagirdlərdə siyasi mədəniyyəti formalaşdırmağın özünəməxsus cəhətləri vardır. 1. Şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması; 2. Şagirdlərin bilik, bacarıq və vərdişlərinin nəzərə alınması, 3. Hər bir şagirdin fərdi xüsusiyyətlərinin nəzərə alınması; 4. Cinsi xüsusiyyətlərinin nəzərə alınması; 5. Dərsdə elmi, dini, iqtisadi, siyasi və s. formalaşdırmaq üçün müxtəlif sorğu ədəbiyyatlarından istifadə edilməsi və i.a.

Orta siniflərin tarix kurslarında din, dövlət, əxlaq, hüquq, siniflər, siyasi partiyalar və iqtisadi bazarların əmələ gəlməsi haqqında siyasi məzmunlu mövzular şagirdlərdə siyasi mədəniyyətin idrakı səviyyəsini formalaşdırır. Yuxarı siniflərdə daha mürəkkəb, çətin mövzuların mənimsənilməsi ilə şagirdlərdə siyasi mədəniyyəti formalaşdırmağa motiv yaradır.

Müəllim həm IX sinif Azərbaycan tarixi "Azərbaycan Xalq Cumhuriyyətinin iqtisadi, sosial və mədəni tədbirləri", həm də XI sinif "Azərbaycan Xalq Cumhuriyyətinin daxili siyasəti" mövzularının tədrisində cumhuriyyətin daxili simvollarından istifadə etməklə təhsilalanlarda siyasi mədəniyyətin formalaşdırılması, yaxud inkişafı imkanlarından yararlanmalıdır. Bu mövzuların tədrisi zamanı mənəvi tərbiyə formalaşır. Hər şeydən əvvəl şagirdlərdə öz dövlətlərinə sevgi hissi aşılanır. Mövzuların tədrisində tarix müəllimi dövlətin quruluşu olan parlamentli respublika, dövlət quruculuğu, hökumət, iqtisadi siyasətin əsas istiqamətləri və s problemlərinə daha dərindən yanaşmalıdır (4, s. 25-26).

"Azərbaycan Xalq Cumhuriyyəti" mövzusu tədris edilən zaman onu müasir Azərbaycan ilə əlaqələndirmək və müqayisə etmək məqsədəuyğun olacaqdır. Artıq XI sinif şagirdləri müasir dövlətimizin AXC-nin varisi olduğunu anlayırlar. Şagirdlər AXC-nin parlamentli respublika olduğunu oxuyurlar və burada idarəolunmada müxtəlif etnik azlıqların, dini azlıqların nəzərə alınmasını dərk edirlər. Bu özü də həmin cəmiyyətdə siyasi mədəniyyətin olduqca yüksək yerdə olduğuna işarə edir. Müasir Azərbaycan Respublikası isə prezidentli respublikadır. Varislik baxımından şagirdlər burada bir uyğunsuzluğun olduğunu qeyd edə bilərlər. Təcrübəli tarix müəllimi bu məqamda həqiqətən də parlamentli respublikanın demokratik ənənələrin yaşaması üçün ən uyğun variant olduğunu şagirdlərə izah etməlidir. Lakin prezidentli respublikanın mövcud olmasını şərtləndirən bir çox faktorlar da vardır. Parlamentli respublikada qərarların qəbul olunması daha çox müzakirələrə səbəb olur və onun qüvvəyə minməsi üçün uzun zaman tələb olunur. Amma hər kəsə olduğu kimi müasir gənclərimizə də məlumdur ki, Azərbaycan Respublikası Ermənistan ilə müharibə vəziyyətindədir və buna görə də bizim daha tez qərarlar qəbul etməyə ehtiyacımız var. Buna görə də prezidentli respublikanın olması bizim üçün ən optimal variantdır. Tarix dərslərində siyasi mövzularda müzakirələr şagirdləri respublikanın cari həyatının aktual məsələləri ilə, beynəlxalq hadisələrlə tanış edir (3, s. 21-22).

Bütün bunları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, müasir dövrdə məktəbli gənclərin siyasi mədəniyyətinin məzmununda, keyfiyyətində olduqca yeniliklər baş vermişdir. Nümunəvi vətəndaşı tərbiyə etmək üçün tarixin tədrisində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması üzrə iş sisteminin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Siyasi mədəniyyəti formalaşdıran ictimai şüur formalarını və onun bilik, inam, ictimai fəallıqla, eləcə də,

dövlət simvolları ilə bağlılığını nəzərə alaraq tarixin tədrisini təşkil etdikdə şagirdlərin siyasi mədəniyyəti yüksəlir.

**Məqalənin aktuallığı.** Demokratik, hüquqi, dünya sivilizasiyasının tələblərinə uyğun, tam azad, müstəqil cəmiyyət quruculuğunda yüksək siyasi mədəniyyətə malik vətəndaşlara böyük ehtiyac var. Siyasi sistemin formalaşmasına təsir göstərən mədəni sərvətləri cəmiyyət üzvləri, o cümlədən məktəblilər nə qədər çox mənimsəsələr, cəmiyyətdə sabitlik də bir o qədər yüksək olar. Azərbaycanda siyasi yetkinlik və əhalidə siyasi mədəniyyətin formalaşdırılması məsələləri tarix boyu diqqət mərkəzində olub. Aydındır ki, şəxsiyyətin inkişafı müəyyən dərəcədə bizdən asılı olmayan prosesdir. Lakin onun istiqaməti, məqsədəuyğunluğu təlim-tərbiyənin təşkilatçılarından asılıdır. Şəxsiyyəti formalaşdırmaq üçün biliyi əqidəyə çevirmək lazımdır. Müəllimlərin pedaqoji rəhbərliyi ilə interaktiv üsullardan istifadə edərək şagird şəxsiyyəti mərhələ-mərhələ formalaşır.

**Məqalənin elmi yeniliyi.** Müasir təlimin köməyi ilə ümumtəhsil sistemində siyasi mədəniyyətin yaranması yollarının tədqiq edilməsi, mövcud çatışmazlıqların aradan qaldırılması problemin elmi yeniliyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Bu məqalənin nəticələrindən xüsusilə tarix müəllimləri tədris-tərbiyə prosesində istifadə edə bilərlər. Tədqiqatımızda siyasi mədəniyyətin formalaşdırılması məsələlərinin əsaslandırılması, təlim prosesinin şagirdlərin siyasi dünyagörüşlü şəxsiyyət və düzgün vətəndaş kimi formalaşmasına təsiri əks olunmuşdur.

## Ədəbiyyat

1. Əmirov M. Orta məktəbdə tarixin tədrisinin aktual problemləri. Bakı, 2009.
2. Əmirov M. Tam orta məktəbdə tarixin fəal interaktiv təlim metodikası. Bakı, 2011.
3. Məmmədova M. Tarixin tədrisinin aktual problemləri. Bakı, 2015.
4. İsmayılov İ. Azərbaycan xalqının siyasi mədəniyyəti. Bakı, 2002.

**А.А. Ахмадзаде**

## Формирование политической культуры у школьников на уроках истории

## Резюме

В статье отражено обоснование вопросов формирования политической культуры, влияния учебного процесса на формирование у студентов политического мировоззрения и хорошего гражданина.

**A. A. Ahmadzada**

## Formation of political culture in students in history lessons

## Summary

The article reflects the formation of political culture, the substantiation of the impact of the educational process on the formation of students' political outlook and a good citizen.

**Redaksiyaya daxil olub:** 05.04.2021